## Oruç Dadaşi Elman

### Zəlzələ Adlı Dərdimiz

Viran qalıb, can Xoy şəhri, qış günü
Fələk tökdü bizə qəhri, qış günü
İçitdirdi ölüm zəhri, qış günü
    Başlayıbdır ellərinən kəl-kələ
    Dünya boyda, dərdə döndü zəlzələ

Yer öz dərdin, ürəyində çaxladı
Gecə gözü, bir neçə an laxladı
Anaları, gözü yaşlı saxladı
    Çoxlu cana, saldı yaman vəlvələ
    Dünya boyda, dərdə döndü zəlzələ

Xoy'dan sonra, Türk ölkəsin dağıtdı
Yaşayışın, var kölgəsin dağıtdı
Bir vətənin, can bölgəsin dağıtdı
    Qanlı düşmən tez eylədi həlhələ
    Dünya boyda, dərdə döndü zəlzələ

İmtəhandır, tanrı keçir bu günlər
Dost-düşməni, əcəb seçir bu günlər
Dözüm donun, Türkə biçir bu günlər
    Çətinləşir gələn günlər gəl-gələ
    Dünya boyda, dərdə döndü zəlzələ

Ağır ellər, bir ürəkli olmalı
Bir arzulu, bir diləkli olmalı
Elman sevən, güc biləkli olmalı
    Abadlığa verməliyik əl-ələ
    Dünya boyda, dərdə döndü zəlzələ